# TÜRKSOY Yazıçılar Birliyi təsis edildi

## Sultan Rayev: "Məqsəd türk dünyası ədəbiyyatında əlaqələri gücləndirməkdir"

**"Yeni təsis etdiyimiz TÜRKSOY Yazıçılar Birliyinin məqsədi türk dünyası ədəbiyyatları arasında əlaqələri gücləndirmək və onlar arasında körpü yaratmaqdır".**

Bu fikirləri "Report"un Ankara bürosuna açıqlamasında TÜRKSOY-un Baş katibi Sultan Rayev bildirib.

Onun sözlərinə görə, birliyin yaradılması onun təşəbbüsü və qurumun təşkilatçılığı ilə baş tutub: "Hesab edirəm ki, bu birlik türk dünyası ədəbiyyatına yeni bir nəfəs gətirəcək. Məqsədimiz türk coğrafiyasında yaşayan yazıçıların bir-birini tanımasına, əsərlərinin tanıdılmasına və ortaq problemlərini müəyyən edərək çözülməsinə dəstək verməkdir. Bunun üçün də biz türk ədəbiyyatının gələcəyini müzakirə etməliyik".



**S.Rayev TÜRKSOY-un Baş katibi olaraq ən mühüm vəzifələrindən birinin türk dünyası mədəniyyətlərini bir-birinə yaxınlaşdırmaq, onlar arasında ünsiyyəti gücləndirmək olduğunu vurğulayıb:** "Türk mədəniyyətinin lokomotivi ədəbiyyatdır. Ədəbiyyat mədəniyyətin şah damarıdır. TÜRKSOY-un da qutsal vəzifəsi bütün türk boylarının mədəniyyətinə möhkəm körpü olmaq, qardaş türk boylarını ədəbiyyat və mədəniyyət vasitəsilə bir-birinə yaxınlaşdırmaq, onları birliyə, həmrəyliyə dəvət etməkdir. Ən mühüm şüarımız isə İsmayıl Qaspıralının dediyi kimi, dildə, fikirdə, əməldə birlikdir".

Qeyd edək ki, martın 6-da qurumun Ankaradakı məkanında TÜRKSOY Yazıçılar Birliyi təsis toplantısı keçirilib.

Mədəniyyət təşkilatının rəhbərinin ev sahibliyi ilə keçirilən tədbirdə Azərbaycan Yazıçılar Birliyinin beynəlxalq əlaqələr üzrə katibi Səlim Babullaoğlu, Qazaxıstan Yazıçılar Birliyinin sədri Uluqbek Esdaulet, Qırğızıstan Yazıçılar Birliyinin sədri Nurlanbek Kalıbekov, Özbəkistan Yazıçılar Birliyinin sədri Sirojiddin Seyid, Türkiyə Yazıçılar Birliyinin İdarə Heyətinin üzvü Mahmut Erdemir, Avrasiya Yazarlar Birliyinin sədri Yakup Ömeroğlu və Türkmənistanın Türkiyədəki səfirliyinin ikinci katibi Handurdi Turayev iştirak ediblər.

Toplantıda həmçinin çıxış edənlər təmsil etdikləri qurumun yaradıcılığından və TÜRKSOY-un ədəbiyyat sahəsindəki mühüm fəaliyyətindən bəhs edərək yaradılan birliyin türk coğrafiyasının ədəbiyyat sahəsinə yeni təkan verəcəyinə inandıqlarını vurğulayıblar.

Açılış çıxışlarından sonra iclas sessiyalarla davam edib. Toplantının sonunda TÜRKSOY Yazıçılar Birliyinin yaradılması haqqında sənəd iştirakçılar tərəfindən imzalanıb.

Qəbul edilən qərara əsasən, Qazaxıstan Yazıçılar Birliyinin rəhbəri Uluqbek Esdaulet TÜRKSOY Yazıçılar Birliyinin sədri seçilib. Bundan başqa, TÜRKSOY Yazıçılar Birliyinin ilk toplantısının bu ayın sonunda Özbəkistanda keçirilməsi qərara alınıb.

Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı - Türkdilli ölkələrin mədəniyyət səylərini birləşdirən beynəlxalq təşkilatdır. TÜRKSOY-un yaradılması və fəaliyyət prinsipləri haqqında Müqavilə həmin ölkələrin mədəniyyət nazirləri tərəfindən 1993-cü il iyulun 12-də Almatı şəhərində imzalanmışdır. Təşkilatın nizamnaməsinə görə, o, türkdilli dövlətlərin mədəniyyət nazirlərinin Daimi Şurasının qərarlarına əsasən fəaliyyət göstərir. TÜRKSOY-un əsas üzvləri Qazaxıstan, Türkiyə, Azərbaycan, Özbəkistan, Qırğızıstan və Türkmənistandır. Qalan 8 üzv isə əsasən müşahidəçi qismində iştirak edir.

Türk xalqları özlərinin qədim, çoxəsrlik tarixi boyu Avrasiya məkanının böyük hissəsində yaşayaraq dünya, bəşər mədəniyyətinə böyük töhfələr vermiş, onu zənginləşdirmişlər. Tarixin müxtəlif mərhələlərində türk xalqlarının həyatı cürbəcür, bəzən isə hətta onların varlığını təhlükə altına alan müharibələrlə, döyüşlərlə, təcavüzlərlə qarşılaşmışdır. Ancaq türk xalqlarının ulu tarixin dərinliklərindən keçib gələn zəngin kökləri, bir-birinə mənəvi bağlılığı onları bütün bu mərhələlərdə imtahanlardan, sınaqlardan mətanətlə çıxarmış və bugünkü günlərə gətirib çıxarmışdır. Bu xalqlar tarix boyu insan həyatının bütün sahələrində öz istedadını, biliyini, bacarığını göstərmiş, elmi ixtiraları, qəhrəmanlıq nümunələri, böyük tarixi-memarlıq abidələri və qiymətli bədii əsərləri, musiqisi ilə onun parlaq səhifələrini yaratmışlar.

Yeni müsavat.- 2023- cü il.- 8 mart.- S. 15.